AZERTAG.COM

**29.05.2011**

**31 may-Dünya Tütünlə Mübarizə Günüdür Tütündən istifadə ilə bağlı 25 məktəbdə sorğu aparılmışdır**

Bakı, 29 may (AzərTAc). 1988-ci ildə Dünya Səhiyyə Təşkilatı (DST) Assambleyasının 42-ci sessiyasında 19 nömrəli qətnamə ilə elan edilmiş Dünya Tütünlə Mübarizə Günü siqaretin yaratdığı xəstəliklərə və ölüm hallarına diqqəti artırmaq məqsədi ilə hər il qeyd olunur.

Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzindən (İSİM) AzərTAc-a bildirmişlər ki, bununla bağlı “Azərbaycanda Tütünlə Mübarizə üzrə Milli Strategiya” hazırlanmış, 2010-cu ilin dekabrında bir qrup əməkdaş bu epidemiya ilə mübarizə təcrübəsini öyrənmək üçün Türkiyəyə səfər etmişdir.

Həkimlər üçün “Tütünçəkmədən imtina etmə üzrə klinik protokol” tərtib edilmiş, bu mövzuda 5-15 yaşlı uşaqlar arasında rəsm müsabiqəsi keçirilmiş, maarifləndirici bukletlər, plakatlar, broşürlər hazırlanmış, www.tobaccocontrol.az saytı yaradılmış, videoçarx çəkilmişdir. Həmçinin Azərbaycanda ilk dəfə olaraq, tütündən istifadə ilə bağlı 25 məktəbdə 2 min 47 şagird arasında aparılan sorğu başa çatdırılmışdır.

Hazırda “Siqaretçəkmənin məhdudlaşdırılması haqqında” Qanun layihəsi hazırlanır. Qanunun qəbulundan sonra onun tətbiqinə dair müşahidələr aparılacaqdır.